

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 250 (23.412)

*31 dekabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Dekabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonundakı Səttar Bəhlulzadə küçəsi, Atatürk və Ziya Bünyadov prospektlərinin kəsişməsində yerləşən parkda aparılan yenidənqurma işləri ilə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev dövlətimizin başçısına parkda həyata keçirilən yenidənqurma işləri barədə məlumat veriblər.

Parkda görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verib.

Azərbaycan Respublikası Prezidentinin "Yeni yaradılmış inzibati və kommersiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında" və "Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin vəzifələrinin dəyişdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 30 dekabr tarixli Sərəncamları ilə aşağıdakı hakimlər Naxçıvan Muxtar Respublikası məhkəmələrinin hakimləri təyin edilmişlər:

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi üzrə:**

Muradov Hicran Xasay oğlu

Novruzov Səxavət Hüseyn oğlu

**Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi üzrə:**

Hüseynov Elnur Heydər oğlu

Salmanov Elşən Fizuli oğlu

**Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi üzrə:**

Heydərov Faiq İnqilab oğlu.

Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavininin, İnzibati və Kommersiya kollegiyaları sədrlərinin və bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli Sərəncamına əsasən:

Əsgər Novruz oğlu Novruzov Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi sədrinin müavini,

Yusifəli Süleyman oğlu Qurbanov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri,

Əhliman Mehman oğlu Xıdırov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri,

Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri,

Elşən Fizuli oğlu Salmanov Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin sədri,

Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilmişdir.

## İlin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilən kollegiya iclasını muxtar respublika prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2019-cu ildə muxtar respublikanın sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsində ***"Əhali arasında hüquq maarifi və profilaktik tədbirlərin gücləndirilməsinin nəticəsidir ki, cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır"*** fikri prokurorluq işçilərini gələcək fəaliyyətə daha da ruhlandırmalı, bundan sonra da cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi yüksək səviyyədə təmin olunmalıdır. Həmçinin Ali Məclis Sədrinin torpaqların qanunsuz zəbt olunmasının və təyinatından kənar istifadəsinin qarşısının alınması istiqamətində verdiyi tapşırıqların icrasına uyğun olaraq prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Qeyd olunub ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri muxtar respublika prokurorluğunda olub, buranın iş prinsipi ilə tanış ediliblər. Bundan əlavə, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə prokurorluq orqanları tərəfindən mütəmadi olaraq tədbirlər keçirilib.

Diqqətə çatdırılıb ki, bəhs olunan dövrdə muxtar respublika ərazisində peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı, həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmayıb. O cümlədən vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili də muxtar respublikanın prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılıb, vətəndaşlar tərəfindən daxil olan müraciətlər qanunvericiliyin tələbləri əsasında həll edilib.

Prokuror bildirib ki, 2019-cu ildə qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar profilaktik tədbirlərin həyata keçirilməsi davam etdirilib, həmçinin bu sahədə kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə olunub.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında keçirilən yığıncaqda İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Ülkər Bayramova çıxış edib. Bildirib ki, Müvəkkil təsisatı muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, həmçinin bu hüquqların davamlı inkişafına yönəlmiş tədbirləri 2019-cu ildə də davam etdirib, Müvəkkil fəaliyyətini, əsasən, daxil olan müraciətlərin araşdırılması, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlərin həyata keçirilməsi, preventiv mexanizm funksiyasının icrası, dövlət orqanları, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirib.

2019-cu ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 87 müraciətin daxil olduğunu diqqətə çatdıran Ülkər Bayramova bildirib ki, müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılıb və cavablandırılıb.

Vurğulanıb ki, cari ildə Müvəkkil təsisatı tərəfindən, ümumilikdə, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 81 tədbir keçirilib, habelə hüquqi maarifləndirici vəsaitlər təqdim edilib. Müvəkkil preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 107 başçəkmə həyata keçirib, preventiv mexanizmin fəaliyyəti və insan hüquqlarının digər sahələri üzrə keçirilən maarifləndirmə tədbirlərində 1350 nəfər iştirak edib.

Ombudsman bildirib ki, 2019-cu il ərzində Müvəkkil təsisatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılıb, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici ölkələrin səfirliklərinin nümayəndələri ilə keçirilən görüşlərdə, həmçinin Müvəkkilin iştirak etdiyi beynəlxalq konfranslarda muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlər, təsisatın fəaliyyəti barədə geniş məlumat verilib.

Qeyd edilib ki, cari ildə muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi və fəaliyyətin əlaqələndirilməsi istiqamətində işlər davam etdirilib, ümumilikdə, 493 informasiya materialı Müvəkkilin rəsmi internet səhifəsində və digər kütləvi informasiya vasitələrində yerləşdirilib.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova qarşıda duran vəzifələrdən danışaraq qeyd edib ki, 2020-ci ildə də Müvəkkil təsisatı müvafiq sahələr üzrə fəaliyyətini davam etdirərək əldə edilən müsbət təcrübənin daha da inkişaf etdirilməsi və mütəmadi təkmilləşdirilməsi istiqamətində səylərini artıracaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

* * *

Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasını nazir Bəhruz Bayramov açaraq bildirib ki, qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafına səbəb olub.

Qeyd olunub ki, aqrar sahədə infrastruktur yaxşılaşdırılmaqla əkinçilikdə yüksək göstəricilərə nail olunub. Belə ki, 519,4 hektarı 2019-cu ildə olmaqla, 4479 hektar sahədə qapalı suvarma sistemlərinin tikilərək istifadəyə verilməsi əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və məhsul bolluğunun yaradılmasına imkan verib. Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üzrə ardıcıl tədbirlər həyata keçirilir. 2019-cu ilin məhsulu üçün 62 min 970 hektar sahədə əkin aparılıb ki, bu da 2018-ci ilin məhsulu üçün



əkilmiş ümumi sahədən 1035 hektar çoxdur. Taxılçılığın strateji əhəmiyyətə malik olması diqqət mərkəzində saxlanılıb. 2019-cu ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkini aparılıb. Bunun 31 min 667 hektarı payızlıq, 1641 hektarı isə yazlıq taxıldır. Taxıl əkinlərinin 24 min 729 hektarı buğda, 8579 hektarı isə arpadır. Ötən illə müqayisədə taxıl əkini sahəsi 825 hektar artıb.

Diqqətə çatdırılıb ki, ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi, onların ixtisaslaşması və dövlət dəstəyinin artırılması məqsədilə 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması aqrar sahəyə göstərilən hərtərəfli və davamlı dövlət qayğısının bariz nümunəsidir. Göstərilən hərtərəfli qayğı və müvafiq dövlət sənədlərinin icrası nəticəsində hazırda muxtar respublikada 1000-dən çox ixtisaslaşmış kiçik və böyük ailə təsərrüfatı fəaliyyət göstərir.

Vurğulanıb ki, hazırda muxtar respublikada 5000 hektar sahədə meyvə bağları mövcuddur ki, bunun da 4170 hektarı barverən bağlardır. Muxtar respublikanın iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün elmi-tədqiqat işlərinin aparılması da nəzərdə tutulur. Bu istiqamətdə "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb.

Bildirilib ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 319 ədədi 2019-cu ildə olmaqla, cəmi 2694 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilib, ondan 2108-i lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 163-ü isə nağd və ya köçürmə yolu ilə satılıb. Muxtar respublikada 507 milyon 641 min manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çoxdur.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

# Milli birliyin və həmrəyliyin təntənəsi

*Hər bir ölkənin müstəqilliyi vətəndaşlarının milli birliyi və həmrəyliyinin təcəssümü nəticəsində mümkündür. Çünki milli birlik olmadan, ümumi vətəndaş mövqeyi ortaya qoyulmadan bir dövlətin müstəqilliyini əldə etmək və qorumaq olmaz. Tarix dəfələrlə sübut edib ki, milli birliyi formalaşdırmaq, eyni hədəf uğrunda mübarizəni təmin etmək üçün hər zaman liderlərə ehtiyac duyulub. O liderlər ki böyük ideyaları, yorulmaz fəaliyyətləri ilə xalqa yumruq kimi birləşməyin, bir amal uğrunda mübarizə aparmağın yolunu göstərmişlər.*

Azərbaycan xalqı da ötən əsrin sonlarına doğru müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin qəbul etdiyi tarixi qərarlarla mövcudluğunu qorumuş, öz müstəqil dövlətinin sahibi olmuşdur. Məhz xalqımızın ümummilli liderinin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul olunması ilə dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşməsi ideyasının əsası qoyulmuşdur. Həmin sessiyadakı çıxışında ulu öndərimiz qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq demişdir: ***“Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür”.***

Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır. Buna görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlılarının təşkilatlanması prosesinin və vahid ideologiya ətrafında sıx birləşməsinin ulu öndərin adı ilə bağlı olduğunu bildirərək demişdir: ***“Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda Onun təşəbbüsü ilə 31 dekabr “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” kimi elan edilmişdir. Bu gün, 31 dekabr bizim milli bayramımızdır”.***

Ulu öndər Heydər Əliyevin xalqımızın milli həmrəyliyi yolunda atdığı addımlar görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra daha da genişlənmiş, Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü işlər aparılmışdır. Dahi şəxsiyyətin dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, onların məskunlaşdığı ölkələrdə siyasi, iqtisadi fəaliyyətini genişləndirməsi həyata keçirdiyi siyasətin prioritet istiqamətlərini təşkil etmişdir. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi olmuş ümummilli liderimiz xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə diasporumuzun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır. Bu görüşlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün mənəvi dayaq və güvənc yeri olmuşdur.

Bu sahədə ən böyük dönüş görkəmli dövlət xadiminin “Dünya Azərbaycanlılarının birinci Qurultayının keçirilməsi haqqında” 2001-ci il 23 may tarixli Sərəncamına uyğun olaraq həmin ilin 9-10 noyabrında Bakıda təşkil edilən qurultay olmuşdur. Bu qurultay milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvəsi olmaqla yanaşı, fərqli ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, diaspor quruculuğunun təkmilləşdirilməsi işinə öz böyük töhfəsini vermişdir. Ümummilli lider qurultayda proqram xarakterli çıxış edərək dünya azərbaycanlılarının həmrəyliyini vacib bir vəzifə kimi önə çəkmiş, bunun üçün zəruri olan istiqamətləri diqqətə çatdırmışdır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən bu qurultay Azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda atılan böyük addım idi. Buna görə də qurultay müstəqil Azərbaycanın, eləcə də dünya azərbaycanlılarının həyatında mühüm ictimai-siyasi hadisə kimi yaddaşlara yazılmışdır. Bu tarixi hadisədən sonra xaricdə yaşayan azərbaycanlıların diaspor quruculuğu sahəsində canlanma yaranmış, onları birləşdirən təşkilatlar daha aktiv fəaliyyət göstərməyə başlamışlar. Görülən işlərin nəticəsidir ki, hazırda dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycanlılar yaşadıqları xarici ölkələrdə cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında yaxından iştirak edirlər.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətində Azərbaycançılıq ideyalarının inkişaf etdirilməsi, təbliğ olunması hər zaman ön planda olmuşdur. Bunun üçün hələ ölkəmizə rəhbərliyinin ilk vaxtlarından başlayaraq dahi şəxsiyyətin milli dil, təhsil, tarix, mədəniyyət və incəsənətimizlə bağlı atdığı böyük addımlar Azərbaycanın gələcək müstəqilliyini təmin etməklə yanaşı, həm də Azərbaycançılıq ideologiyasının formalaşmasına öz töhfəsini vermişdir. Azərbaycanın müasir inkişaf təməli də məhz həmin illərdə qoyulmuş, ölkəmizin tərəqqisi alternativi olmayan Heydər Əliyev siyasi yolunun uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur. Bu il ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi münasibətilə “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“…Ulu öndər tarixin sınağından çıxmış idarəçilik üsulları, eləcə də müasir bəşəri dəyərləri və prinsipləri mənimsəyərək, özünəməxsus dövlət idarəçiliyi modelini yaratmağa müvəffəq olmuşdur. Bu modelin səciyyəvi cəhətləri – dövlətçilik, vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik, xalqın etimadına arxalanmaq, milli mentaliteti nəzərə almaqla güclü nizam-intizamın, daxili siyasi sabitliyin və sosial tarazlığın təmin edilməsi, demokratiya və humanizm prinsipləri ilə ciddi idarəetmə üsullarının uzlaşmasıdır. Milli liderimizin canından əziz sevdiyi müstəqil, qüdrətli Azərbaycan Heydər Əliyev yolu ilə gedərək yaşayır, gündən-günə inkişaf edir, tərəqqiyə qovuşur və Azərbaycanda əldə olunan bütün nailiyyətlərdə Heydər Əliyevin işi və əməlləri bu gün də yaşayır. Zaman keçdikcə bu nailiyyətlər daha da artır. Çünki bu yolu Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi olan hörmətli İlham Əliyev davam etdirir”.***

Bəli, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan hərtərəfli inkişaf etməklə yanaşı, ölkəmizin nüfuzu da dünyada durmadan artır. Eyni zamanda müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələri də möhkəmlənir. Təbii ki, ölkədən kənarda yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrində keçirilən qurultayların da rolu az deyil. Prezident cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi yeni minillikdə diaspor quruculuğu işinin yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan vermişdir. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Bundan 3 il sonra – 2011-ci il iyulun 5-də Dünya Azərbaycanlılarının III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayları keçirilmişdir. Bu qurultaylarda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkə-lərdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları geniş tərkibdə iştirak etmişlər. Qurultaylar xaricdə yaşayan soydaşlarımız tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni irsimizin təbliği, təcavüzkar erməni təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynamış, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların növbəti birlik və həmrəylik bayramına çevrilmişdir.

*Bu gün Azərbaycanın iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi xaricdə yaşayan həmvətənlərimizi də sevindirir, onları ümummilli maraqlar naminə daha sıx birləşməyə, həmrəy olmağa ruhlandırır. İndi azərbaycanlıların həmrəyliyi həm ölkəmiz, həm də xaricdə yaşayan soydaşlarımız üçün mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dekabrın 25-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində dünya azərbaycanlılarına müraciətində dediyi kimi:* ***“Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram”.***

**“Şərq qapısı”**

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyində qeyd olunub



*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar tədbir keçirilib.*

Tədbirdə çıxış edən nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov kollektivi hər iki bayram münasibətilə təbrik edib. Bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan xalqının birlik, bərabərlik və bütövlük günüdür. Bu günün əsas məzmununu xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə, doğma torpağa bağlılıq, Azərbaycançılıq məfkurəsi, duyğuları və ideyaları təşkil edir. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşməsi ideyasının müəllifi ulu öndərimiz Heydər Əliyev olmuşdur. Belə ki, 1990-1993-cü illərdə ümummilli liderimizin Naxçıvandan başlanan xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. Bəxtiyar Əsgərov ötən dövrdə azərbaycanlıların həmrəyliyi istiqamətində ölkəmizdə və xarici dövlətlərdə görülən işlərdən, diasporların fəaliyyətindən, dünya azərbaycanlılarının qurultaylarının keçirilməsindən bəhs edib.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən, məhz Naxçıvan Muxtar Respublikasında qoyulmuş bu xalq bayramının hər il ulu diyarda təntənə ilə qeyd olunmasından, silsilə tədbirlərdən bəhs edən Bəxtiyar Əsgərov bildirib ki, Ali Məclisin Sədri cənab Vasif Talıbov Naxçıvanda ümummilli lider Heydər Əliyevin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdətini yaradıb. Bu gün Naxçıvanda həyata keçirilən məqsədyönlü siyasət nəticəsində inkişaf və tərəqqi üçün mühüm amil olan ictimai-siyasi sabitlik təmin edilib. Muxtar respublikanın şəhər və rayonlarında real canlanma yaranıb, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, minlərlə yeni iş yerləri açılıb. Şübhəsiz ki, həyata keçirilən bu tədbirlərin insan amilinə yönəldilməsi nəticəsində muxtar respublika əhalisinin yaşayışında və həyat tərzində əsaslı dəyişikliklər baş verib. Özünün hərtərəfli inkişaf dövrünü yaşayan Naxçıvanın tarixində ilk dəfədir ki, onun həttа ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, rahat yaşayış məskəninə çevrilib. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimizə isə Azərbaycançılıq amalı ətrafında milli birlik və həmrəylik nümayiş etdirərək bütün qüvvə və bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər etməkdədirlər.

Tədbir digər çıxışlar və bayram şənliyi ilə davam etdirilib.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində dekabr ayında bir sıra qərarlar qəbul edilmişdir. Belə ki, 2019-cu il 7 dekabr tarixli 166 nömrəli Qərarla “Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin kollegiyasının üzvlərinin sayı və tərkibi”, “Şərur yallılarının reyestri”nə daxil edilməsi nəzərdə tutulan yallılara dair məlumatlar haqqında qərarlar qəbul edilmişdir.

“Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinə, məhsul istehsalına, toxum və ting satışına görə verilən subsidiya əmsallarının təsdiq edilməsi haqqında” 26 dekabr tarixli 176 nömrəli Qərara əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarına subsidiyaların ödənilməsi məqsədilə yaradılmış Naxçıvan Muxtar Respublikası Komissiyası tərəfindən hər il Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla hər bir bitki, toxum və ting üzrə kvotanın miqdarı təsdiq edilmişdir.

Bundan başqa, 19 dekabr tarixində “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarında, eləcə də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 177 nömrəli Qərarı ilə “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsinin təmin edilməsi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 noyabr tarixli 109 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə də dəyişikliklər edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

*Gözəl diyarım Naxçıvan, istəyirəm, yenə səndən danışam. Amma bu dəfə haqqında dünyada danışılanlardan söhbət açmaq istəyirəm. Deyirlər, musiqinin dili yoxdur, onu ayrı-ayrı dillərdə danışan bütün insanlar eyni cür duyur. Deyərdim ki, möcüzə də belədir. Bunu hamı olduğu kimi görür, sadəcə, ondan hər kəs öz dilində danışır...*

# Dünya Naxçıvandan danışır...



Yaranışı, tarixi, təbiəti, mədəniyyəti, ədəbiyyatı, sənətkarlığı ilə möcüzə Naxçıvan. Bütün dünya səndən danışır. Torpağına qədəm qoyan, hüsnünə heyran qalan, muzeylərindən tarixin o başına boylanan, keçmişinə nəzər salan, dünəninə bələd, bu gününə valeh olan hər kəs səndən bəhs edir. Gözdağı olduqlarına bu söhbətlər xoş gəlmir, bəli. Amma hamı yaxşı bilir və görür ki, dünya səndən danışır. Artıq tarixin illər qalereyasına verilməkdə olan bir 365-in də hər günü dünyanın səndən danışdığına şahid kimi bu gözəl diyarla vidalaşır. O şahidlər söyləyir ki...

...Özbəkistan səndən danışır. Bu ölkənin *"uchildiz.uz"* portalı rus dilində Naxçıvan yallısının Azərbaycanın musiqi mədəniyyətindəki yerindən, qədim tarixin, zəngin mədəniyyətin göstəricisi olduğundan yazır. Yallımızın Gəmiqaya arxeoloji abidələrində də əks etdirildiyindən, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan yallısını "Naxçıvanın tacı" adlandırdığından bəhs edir. Hazırda Naxçıvan toylarında ifa edilən yallının bu diyarda 100-dən çox növündən, "Qazı-qazı", "Qaladanqalaya", "Köçəri", "Çınqı-çınqı", "Ağıryallı", "Xalq yallısı", "Şəruri", "İki ayaq", "Üç ayaq", "Urfani", "Xələfi", "Ərzumani"dən danışır.

Bu möcüzələr məkanından Pakistan söhbət açır. *"Daily Times"* qəzetində yerləşdirilən məqalə ilə qədim yurdun tarixindən, keçmişindən, blokadalı həyatından, bu günündən – son 25 ilinin inkişaf və tərəqqisindən danışır.

Naxçıvandan – bu füsunkar diyardan Türkiyə danışır. Buraya ilk dəfə 1993-cü ildə, bu il isə yenidən gələn Həmzə Səngər *"gazetekars.com"*da təəssüratlarını yazır. Heydər Əliyev Muzeyindən, Dövlət Bayrağı Meydanından, Xan sarayından, Açıq Səma Altında Muzeydən, Möminə xatın məqbərəsindən, Naxçıvan teatrından danışır, bu gözəl və cazibədar şəhərin onu valeh etməsindən söz açır. Yurddaşlarına bir gün yolları Naxçıvana düşərsə, mütləq bu məkanları görməyi tövsiyə edir. Türkiyə Dağçılıq Federasiyasının 14 nəfərlik heyətinin tərkibində Xocalı soyqırımının ildönümü ilə əlaqədar bu il fevralın 25-də Haçadağa yürüş edən həvəskar dağçı Səlma Güvənin təəssüratlarında "Zamanın durdurulduğu Qaf Dağı ölkəsi... Naxçıvan Muxtar Respublikası"san, onun ölkəsinə qayıtdıqdan sonra *"guncelkadin.com.tr"* saytında yerləşdirilən məqaləsində doyumsuz gözəlliklərindən bəhs edilən möcüzələr diyarısan, Naxçıvan.

*"Serhad Birikim"* qəzetinin əməkdaşı Muhammed Akkuşun səndən yazan qələmində Mərkəzi Asiyaya açılan qapısan, gözəl diyar. İlk dəfə buraya 1998-ci ildə gəldiyində muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin prospekt və küçələrinin indiki kimi olmadığını, elektrik enerjisinin yoxluğunu, şəhərin daha çox kəndi xatırlatdığını yazan Muhammed bugünkü Naxçıvanın isə gömrük-keçid məntəqəsindən başlayaraq bir Avropa məkanına bənzədiyindən söhbət açır.

Türkiyənin 70 milyon insan tərəfindən oxunan *"Skylife"* turizm jurnalı Naxçıvandan danışır, Büşranur Kocaer "Mədəniyyətlər beşiyi Naxçıvan" adlı məqaləsi, Məsudə Bülbülə fotoşəkillərlə Naxçıvandan – yer üzündə varlığı Nuh Peyğəmbər dövründən başlayan və Böyük İpək Yolunun üzərində yerləşən, Övliya Çələbinin "Səyahətnamə"sində "Nəqşi-cahan" adlandırdığı qədim diyardan danışırlar.

Ayten Alkaşı mədəniyyətlər diyarı Naxçıvandan Türkiyəyə salam göndərir, *"www.siyasalbirikim.org"* saytında bu diyara siz də gəlin, mütləq gəlin, mədəniyyəti, təmizliyi görün, restoranların gözəlliyinə, xüsusən səliqə-sahmana, qonaqpərvərliyə şahid olun və bu diyarın özünəməxsus yeməklərindən dadın, o vaxt mənə haqq verəcəksiniz, – deyir.

Amerika səndən danışır, Naxçıvan. Tədqiqatçı Peter Tase *"Eurasia Dairy"* saytında "Ermənistanın Azərbaycana qarşı faşist təbliğatı" sərlövhəli məqaləsində *"The Guardian"* və *"Hyperallergic"* qəzetlərində ermənilər tərəfindən Naxçıvan barədə yazılan uydurma yalanlardan, oxuculara yanlış məlumat verməklə qədim tarixi ilə bağlı faktları məhv etmək və ləkələmək cəhdlərindən danışır. Erməni saxtakarlığını beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmağın və şovinizmin bir forması hesab edir. Tək bununla deyil, Peter Tase digər müsahibə və yazılarında səndən, təbiətindən, gözəlliyindən danışır.

Ukraynanın *"mega-polis.in.ua"* saytında yerləşdirilən məqalə ilə səni Azərbaycanda Avropa şəhərlərini xatırladan bir məkan kimi oxuculara təqdim edir. Burada olan təmizlik və səliqə-sahmanın Avropanın İsveçrə, Avstriya, Almaniya kimi ölkələrin şəhərləri ilə müqayisə oluna biləcəyindən danışır. Məqalədə Naxçıvanın müasir görüntülərinin və yenidən bərpa edilən qədim abidələrinin fotolarını da verməklə bu diyarın gözəlliklərindən canlı olaraq danışır. Ukraynanın "Kanal-5" televiziyası Naxçıvanla bağlı çəkilmiş ikihissəli verilişdə də yenə bu diyardan bəhs edir. Buradakı tarixi abidələrdən, mədəniyyət və səhiyyə müəssisələrindən, həmçinin muxtar respublikanın iqtisadi potensialından, istehsal edilən keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsullardan, sənaye və kənd təsərrüfatı sahəsində qazanılan uğurlardan, Duzdağ Fizioterapiya Mərkəzində təkcə yerli sakinlərin deyil, həmçinin əcnəbi ölkələrdən gələn insanların müalicə olunmasından söz açır. "Naxçıvan" mahnısının sədasını Ukraynaya yayır.

Səudiyyə Ərəbistanı Naxçıvanın Qafqazın incisi, İslam Mədəniyyətinin Paytaxtı olmasından danışır. Krallığın Turizm və İrs Komitəsinin nəzdində fəaliyyət göstərən turizm media orqanlarının *"arabtourist.net"* və *"ac4mt.net"* internet saytlarında ərəb dilində yerləşdirilən məlumatla, Naxçıvan şəhərinin və muxtar respublikanın təbiət mənzərələrini əks etdirən fotoşəkillərlə Ərəbistan bu diyarın 1200-dən artıq dünya və yerli əhəmiyyətli tarixi abidəsindən, qədim tarixə malik olan Naxçıvan şəhərinin güclü dövlətlərin, o cümlədən Atabəylər dövlətinin paytaxtı olmasından, burada elm, mədəniyyət və sənətkarlığın geniş inkişaf etməsindən, islami dəyərlərin yaşadılmasından söhbət açır. Yaxın Şərqdəki ərəbdilli ölkələrdə milyonlarla insan tərəfindən izlənilən "CNN arabic" telekanalının rəsmi internet saytı da Naxçıvandan danışır. Əshabi-Kəhf ziyarətgahının Naxçıvan Muxtar Respublikasında yerləşən bir məbəd olduğundan, əvvəllər bu müqəddəs ocağa gediş-gəlişin həddindən artıq çətinliyindən, 1998-ci ildə dövlət tərəfindən aparılan quruculuq və bərpa işləri nəticəsində Əshabi-Kəhfə yolların çəkilməsindən, ziyarətgahın abadlaşdırılmasından, əhəmiyyətli turizm mərkəzinə çevrilməsindən, hər il buranı dünyanın müxtəlif yerlərindən on minlərlə insanın ziyarət etməsindən söz açır.

Çili öz vətəndaşlarına Naxçıvandan bəhs edir. Ölkənin geniş oxucu kütləsinə malik *"epicentrochile.com"* xəbər saytı Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş "Azərbaycanın tarixi şəhəri Naxçıvan" başlıqlı məqalə ilə Naxçıvanın tarixən qədim İpək Yolu üzərində yerləşdiyindən, Şərq və Qərb arasında ticarət yollarını və sivilizasiyaları birləşdirdiyindən, "Şərqin qapısı" adlandırıldığını izləyicilərinə çatdırır. Bu il 95 illik yubileyini qeyd edən diyarın zəngin mədəniyyətini əks etdirən qədim tarixi abidələrindən, o cümlədən əzəmətinə və bənzərliyinə görə Azərbaycanın "Maçu Piçu"su adlandırılan, qəhrəmanlıq simvolu hesab edilən Əlincə qalasından, xalqın inanc və toponimləri ilə yanaşı, Qafqazın bir çox tədqiqatçılarının əsərlərində də bəhs olunan Nuh Peyğəmbərin türbəsinin burada yerləşdiyindən danışır.

Yaponiya səndən bəhs edir, Naxçıvan. *"World Investors TV"* internet televiziyası xüsusi yayımladığı verilişlə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 95, böyük Azərbaycan mütəfəkkirləri İmadəddin Nəsiminin anadan olmasının 650 və Cəlil Məmmədquluzadənin 150 illik yubileyləri haqqında tamaşaçılarına məlumat verir.

Hindistan Naxçıvandan danışır. Ölkəsinə dövlət televiziyasında "Dünyanın yaradılış yeri, Nuhun vətəni – Naxçıvan" adlı süjetlə bu bənzərsiz diyar haqqında xəbər verir. Və beləliklə də, hindistanlılar bu möcüzələr diyarını görmək istəyirlər. Naxçıvan da Adityya Şaltari kimi ailəsi ilə Hindistandan buraya qədər gələn qonaqlarını qarşılayır, ağırlayır, əzizləyir. Hindistanlı digər qonağımız Debarçan Bisvas isə buraya "İsti ürəkli muxtar respublika", – deyir. Təəssüratlarında qədimliyinin toxunulmaz qaldığına, eyni zamanda belə müasir görünüşünə görə çox heyrətləndiyini, blokadada yaşamaqla yanaşı, həm də inkişaf etdiyini, turistlərə qarşı çox istiqanlı olduğunu vurğulayır: "İnsanlar çox səmimidir. Dost qazanmaq bir gülümsəmə kimidir. Mən bura paranoyak səyahətçi kimi gəldim, amma çox gözəl xatirələr və ürəyimdə sevgi ilə geri döndüm. Qısa zamanda Naxçıvana yenidən səfər etməyi düşünürəm. Qədim, müasir və gözəl Naxçıvanı möhtəşəm insanların yaşadığı diyar olaraq dünyaya tanıtmaq üçün səylərimi əsirgəməyəcəyəm".

İsveçrə bu gözəl məkan haqqında "Naxçıvanı gəzmək, şəfəqsaçan gözəlliklərə tamaşa etmək insanın ruhunu dincəldir", – deyir. Dünyanın bir çox ölkələrini gəzən və Naxçıvanın da qonağı olan Duri Roner və Lie Roner, Andre Enqetşuler və xanım İnqrit Kundert gözəl Qafqazın bu kiçik məmləkətinin böyük heyranlıqla öz yaşadıqları yerə bənzədiyindən bəhs edirlər.

Daim iqtisadi və mədəni əlaqələrimiz olan qonşu İran İslam Respublikası da Naxçıvandan danışır. Təbriz şəhərində nəşr olunan *"Ərk"* qəzeti muxtar respublikanın zəngin turizm imkanlarına malik olmasından, bu il 95 illiyi qeyd olunan muxtariyyətindən söz açır.

Kanada Naxçıvanın öz tarixi, müasirliyi və tolerantlığı ilə unikal və cazibədar bir məkan olduğundan danışır. Bu qədim diyara əkiz qızları – Melisa və Mina ilə birlikdə tanışlıq məqsədilə gələn kanadalı turist Emily Hansen xoş təəssüratlarından söhbət açır.

Və nəhayət, Böyük Britaniya Naxçıvanı kəşf etdiyindən danışır. Azərbaycan barədə bələdçi kitabının müəllifi Mark Elliott ölkəsində *"Wanderlust"* jurnalında Azərbaycanın turizm potensialını təbliğ edən "Bakıdan kənara səfər etmək üçün ən yaxşı yerlər" sərlövhəli məqaləsində Naxçıvandan söhbət açır. Bu il yenidən Naxçıvanda səfərdə olduqdan sonra isə buranı kəşf etdiyindən nüfuzlu *"Experience Azerbaijan"* jurnalında dərc olunan məqaləsində bəhs edir: "Nuh Peyğəmbərin məzarı və "Avrasiyanın Maçu Piçu"su Naxçıvandadır. Çox güman ki, bu ərazi barədə eşitməmisiniz. Mədəni və siyasi baxımdan Azərbaycan Respublikasının bir hissəsi olmasına baxmayaraq, coğrafi baxımdan Azərbaycandan ayrı düşmüşdür. Bura eksklavlar və fərqli məkanlara səfər etməkdən zövq alanlar üçün ziyarət həyəcanı təqdim edir".

*Bəli, saatlar sonra qarşısında yeni bir 365 gün açılacaq Naxçıvan, həqiqətən, bir möcüzədir. Dünyanın söylədikləri bu möcüzənin yalnız bir hissəsidir. Bu gözəl diyarda kəşf olunası çox məqamlar var. Hələ 2020-ci ildə dünya Naxçıvandan nələr danışacaq, bunu yaşayarıq, görərik, dinləyərik...*

**Mətanət MƏMMƏDOVA**

## Bayram tədbirləri keçirilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovnik-leytenantı Kamil Məmmədəliyev açaraq müəllim kollektivini və kursantları bayramlar münasibətilə təbrik edib.

Qeyd olunub ki, daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsini təmin etmək üçün Ali Məclis Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılıb. Bu, muxtar respublikamızda gənclərə göstərilən növbəti qayğının bariz nümunəsidir.

Bildirilib ki, göstərilən diqqət və qayğı müqabilində Orta İxtisas Polis Məktəbinin pedaqoji kollektivi kursant və dinləyicilərin yüksək səviyyədə təhsil alması, daxili işlər orqanlarında gələcək xidmətləri dövründə qanunçuluğun, dövlətin və vətəndaşların qanuni mənafelərinin təmin edilməsi, ictimai təhlükəsizliyin qorunmasında üzərinə düşən vəzifələri yüksək məsuliyyətlə yerinə yetirmək üçün səy göstərirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov Daxili İşlər naziri, general leytenant Fazil Ələkbərovun təbrikini məktəb kollektivinə və kursantlara çatdırıb.

Sonra Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov, məktəbin müəllimlərindən Şükür Məmmədov və Səadət Qasımova çıxış edərək tədbir iştirakçılarının bayramlarını təbrik ediblər.

Məktəbin kursantlarından Miribrahim Qasımov və Həsən Yusifov göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildiriblər.

**Pərviz HACILI**

* * *



Ordubad Rayon İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Mədəniyyət nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta İnternat Məktəbində də bayramlar münasibətilə tədbir keçirilib. Tədbirdə tarixi günün siyasi mahiyyəti, dünya azərbaycanlılarının təşkilatlanmasının əhəmiyyəti barədə məlumat verilib.

Çay süfrəsi ətrafında keçirilən tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Təhsil naziri Rəhman Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək muxtar respublikamızda xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən dövlət qayğısından danışıblar.

Tədbir bədii hissə ilə davam edib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Tariximizin qızıl səhifələrindən birinin yazıldığı gün – 31 dekabr

### *Həmrəylik bu günümüz, sabahımız, əbədiyyətimizdir*

*Keşməkeşli tariximizin dolaylarına yazılan günlərə qızıl hərflərlə həkk olunmuş bir tarix var: 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü. Bu mənzilin yolu çox-çox uzaqlardan başlayıb.*

Azadlıq mücahidləri öz arzularına çatmağı məhz həmrəylikdə, birlikdə görüblər. Bir araya sığmaq yolunda mübarizəyə atılıblar. Bir gün azadlıqda yaşamağı 40 il əsarətdə yaşamaqdan üstün tutan qəhrəman Babəkimizin arzularından keçib gəlib bu yol.

Tikanlı sərhəd çəpərləri içərisində “qardaşlıq, bərabərlik, sülh” şəraitində yaşayan xalqımıza qarşı edilən mənəvi hücumlar, siyasi gözəgartmalar nə qədər “geniş vüsət” alsa da, bu yolu qət etmək məqsədilə mübarizə aparanlar Uzaq Sibir çöllərinə sürgün edilsələr də, zindanlara atılsalar da, öz əqidələrindən dönməyiblər, “hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına” inanıblar. İnanıblar ki, tutduqları yol haqq yoludur. Bu yolun çətinlikləri, ağrıları, əzabları mənəvi ucalıqdır, özünüdərk yolunda fədailikdir...

... O gün havanın da rəngi dəyişmişdi elə bil. Heç qış havasına oxşamırdı. Uzun illərin ayrılığından sonra birliyə gedən yollarda cəsarətli bir addım atan xalqın zəkası qarşısında, sanki o da gücsüzlüyünü hiss edərək “yumşalmışdı”, tikanlı sərhədlərə – Arazqırağına axışan insan selinin qəzəbinə tuş olmaqdan qorxurdu elə bil. Ya o da insanların bu haqq işinə öz köməyini belə göstərirdi. Ya da bizə elə gəlirdi ki, hava da istidir, soyuq dekabr günəşinin şüaları yerə ılıq bir hərarət verir... O gün tariximizin qızıl səhifələrindən biri yazılırdı...

... Arazqırağı yaşayış məntəqələrindən aralıda yaşayan insanlar belə, axın-axın tikanlı məftillərlə sərhədlənmiş, bizi o taya həsrət qoymuş, məhzun görkəmli Araza doğru axışırdılar – sanki Araz da səhvini başa düşmüşdü, sakit-sakit axmağa başlamışdı; elə bil buralarda bir belə adam gördüyündən xoflanmışdı Araz.

İnsan seli Arazqırağına axışmaqda idi... Bu insanların çöhrələrində təbəssüm, gözlərinin dərinliyində uzaqlara dikilmiş bir nigarançılıq vardı: doğrudanmı, sökəcəyik o tikanlı məftilləri? Qoyarlarmı? Qovuşa biləcəyikmi bir-birimizə?

... Bir neçə gün sonra “qardaşlıq, bərabərlik, sülh” dünyasının paytaxtı Moskva televiziyasının “Zaman” xəbərlər proqramı belə şou-xəbərlər efirə çıxaracaqdı: Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaşayan bir qrup ekstremist dövlət sərhədlərini dağıdıb. Bu, SSRİ Konstitusiyasına qarşı çıxmaq, sərhədlərimizin toxunulmazlıq hüququnu tapdalamaq deməkdir. Onlar SSRİ qanunları ilə mühakimə olunmalıdırlar. (SSRİ-nin “bu humanist qanunları” isə 70 il idi ki, Azərbaycanın əleyhinə işləyirdi).

“Bu qanunazidd hərəkət” o vaxt baş vermişdi ki, həmin “Zaman” xəbər proqramı uzun illər bir-birindən ayrı düşmüş Pribaltika respublikaları vətəndaşlarının üzlərinə bağlanmış sərhədləri dağıdaraq sevincdən göz yaşı tökmələrini, həmin sərhədlərdə bir-birinə qovuşan insanların bu sevincini, onların birləşmək arzularının həyata keçməsini alqışlayırdı.

İstər-istəməz düşünməli olursan: Onların bu hərəkətlərinə çox yüksək qiymət verildiyi halda, naxçıvanlılar nə üçün eyni hüquqdan istifadə edəndə ekstremist oldular?

... Bu da var ki, birləşmək, bir olmaq, öz gücünü dünyaya göstərmək amallı insanlar gördükləri işin haqq işi olduğuna əmin idilər.

... Tariximizə qızıl hərflərlə daha bir gün yazılmaqdaydı: 31 dekabr.

Naxçıvan həmin gün birliyə gedən yolun beşiyinə çevrildi. Arzumuz bu qədim torpaqda çin oldu – doğuldu. Naxçıvanlılar Moskvanın Azərbaycan xalqına qarşı ədalətsiz mövqeyinə etiraz əlaməti olaraq 1989-cu il dekabrın 31-də SSRİ-nin Arazboyu yerləşən 160 kilometrlik dövlət sərhəd dirəklərini, məftillərini texniki qurğuları ilə birlikdə darmadağın etdilər. Bu aksiya dünya azərbaycanlılarını həmrəyliyə çağırış idi.

Sərhədləri aşıb bütün Yer kürəsində yaşayan soydaşlarımız bir-birinin üzünü gördülər, səslərini eşitdilər – beləcə, ayrılıq həsrətlərinə son qoyuldu. Ona görə də naxçıvanlılar bu bayramı daha böyük sevinclə qarşılayır və qeyd edirlər. Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim yurd yeri bir sıra bayramlar və əlamətdar günlərin həyata vəsiqə aldığı məkandır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü də onlardan biridir.

1991-ci ildə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra Ali Məclisin növbəti sessiyası 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmi bayram olaraq hər il qeyd edilməsi barədə xüsusi qərar qəbul etdi.

...O günü xatırlayıram. Bir vaxt quş quşluğu ilə qona bilməyən sərhəd dirəkləri, tikanlı məftillər, 70 il özümüzü özümüzdən qoruyan sərhəd zolağı... Və özündə qüvvə taparaq həmin tikanlı məftillərə, sərhəd dirəklərinə qarşı üsyan edən insanların Arazdan su götürərək bir-birini sulamaqları – salamlamaqları yadıma düşür. Ogünkü sevinci bir daha yaşayıram.

Çox uzaqlardan başlayan yolu fəth etdiyimiz gündən 30 il keçir. Bu, tarix üçün çox kiçik zaman vahididir. O günü bizə – bütün dünya azərbaycanlılarına ərməğan edən Böyük İnsan Heydər Əliyevin bu addımını ilk əvvəllər hakimiyyətdə olanlar qısqanclıqla qarşılasalar da, heç nəyə nail ola bilmədilər. Çünki bu yol haqq yolu idi, bu yolun başında haqqı, ədaləti hər şeydən uca tutub ömrünün mənasına çevirən dahi şəxsiyyət Heydər Əliyev dururdu.

O günü xatırlayıram – üzlərdən sevinc yağırdı; təəccüb doğmuşdu çöhrələrdə, çaşqınlıq sezilirdi sifətlərdə. Çoxları inana bilmirdi gördüklərinə: “Sovet hökumətinin sərhədlərini dağıtmaqmı olar?”

Dünənə qədər bizə xəyal kimi görünənlər 30 ildir ki, həqiqətə çevrilib. Sərhəd dirəkləri yoxdur daha. Bu, görkəmli dövlət xadimi Heydər Əliyevin dünya azərbaycanlılarının bir araya gəlməsi yolunda etdikləri, məhz o vaxt onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarın məntiqi nəticəsidir.

Taleyin hökmü ilə dünyanın hər yerinə səpələnən həmvətənlərimizə, hamımıza – uzun illərin həsrətlilərinə ulu öndər Heydər Əliyev tərəfindən ərməğan olan bu gün hər il təntənə ilə qeyd olunur. Onun tövsiyə xarakterli bir sözü isə hamımız üçün birmənalı qəbul edilib: ***“Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, dilini, dinini, ənənələrini unutmamalıdır. Onun qəlbi doğma Azərbaycanla daim bir vurmalıdır”.***

✍ **Muxtar MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 30 dekabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4424,0 | 3984,0 | 440,0 |
| 2. | Babək rayonu | 11353,0 | 7921,0 | 3432,0 |
| 3. | Ordubad rayonu | 1747,0 | 731,0 | 1016,0 |
| 4. | Culfa rayonu | 7489,0 | 6440,0 | 1049,0 |
| 5. | Kəngərli rayonu | 5408,0 | 3250,0 | 2158,0 |
| 6. | Şahbuz rayonu | 1439,0 | 1351,0 | 88,0 |
| 7. | Sədərək rayonu | 2256,0 | 1621,0 | 635,0 |
| 8. | Naxçıvan şəhəri | 968,0 | 842,0 | 126,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **35084,0** | **26140,0** | **8944,0** |

*İlin uğurları, elin uğurları*

## 2019-cu il müxtəlif sahələrdə uğurlarla yadda qaldı

*Artıq 2019-cu ilin sonundayıq. Bu il də muxtar respublikamızda müxtəlif sahələrdə çalışan və fəaliyyətləri ilə seçilən insanların əməyi yüksək qiymətləndirildi. Biz də onlardan bir neçəsi ilə görüşüb həmsöhbət olduq.*

Bacarığı, işgüzarlığı ilə seçilən “Zümrüd” Tikiş, “Zümrüd”



Geyim Məhdud Məsuliyyətli cəmiyyətlərinin direktoru ***Mehrəngiz Əkbərova*** bu ili öz zəhməti, əzmi ilə uğurla başa vuran sahibkar qadınlarımızdandır.

Müsahibim qeyd edir ki, sahibi olduğu müəssisə 1997-ci ildə 6 nəfər işçi ilə və cəmi 10-12 ədəd, özü də Rusiya istehsalı olan avadanlıqlarla fəaliyyətə başlayıb. Hazırda ümumi ərazisi 700 kvadratmetr olan “Zümrüd” Tikiş MMC daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. 2010-cu ildə 560 min manat vəsait ayrılması sayəsində 2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verilib. 2013-cü ildə müəssisədə yeni – köynək istehsalı sahəsi yaratmağa nail olduq.

Mehrəngiz xanım dövlət dəstəyindən yararlanaraq ötən il yeni bir uğura da imza atıb. “Zümrüd” Geyim Məhdud Məsuliyyətli Cəmiyyəti adı altında yeni istehsal sahəsi yaradıb. Müəssisədə gündəlik 800-1000 dəst alt paltarları istehsal olunur. Burada 10-15 işçi üçün də iş imkanı yaradılıb.

Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Mehrəngiz xanım bu il Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif edilib. Onu da bildirək ki, müəssisə rəhbərinin uğurları bununla bitmir o, 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən “Ən fəal işəgötürən” müsabiqəsi üzrə ikinci yerə sahib olub, “Biznesdə uğur” mükafatına layiq görülüb.

***Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Xanım Rüstəmzadə*** deyir: – Hazırda Xəbərlər redaksiyasında müxbir vəzifəsində çalışıram, eyni zamanda televiziyada xəbər aparıcısıyam. Çalışdığım müddətdə mənə digər redaksiyalara keçmək üçün təkliflər də olub. Ancaq xəbər məni “mən” edəndir. Xəbər mənim özümü tapdığım, ifadə etdiyim televiziya janrıdır. Bunu nəzərə alaraq digər redaksiyalarda çalışmağı düşünməmişəm. Ürəyim artıq 9 ildir ki, xəbərlə döyünür. Onu da deyim ki, bizim işimiz çox məsuliyyətlidir. Çünki telekanalın əsas siması xəbər aparıcısıdır. Bu işdə aparıcının diksiyası, səs tembri, peşəkarlıq və istedadı mühüm əhəmiyyət daşıyır. Fikrimcə, aparıcı istər efirdə, istərsə də efirdən kənarda yaratdığı və təqdim etdiyi obrazın səmimiyyətini qorumalıdır. Mən də bunun üçün çalışıram. Çalışıram ki,



həmişə sərbəst və ünsiyyətcil olum, tamaşaçı ilə danışım, bununla da onların rəğbətini qazana bilim. Məhz bu gün mənim üçün ən böyük uğur da hazırladığım hər reportajdan, süjetdən sonra tamaşaçıların müsbət rəylərini almaqdır.

Qeyd etmək istəyirəm ki, 2019-cu il xoş anlarla yaddaşımda qaldı. 22 iyul – Milli Mətbuat Günü münasibətilə keçirilən tədbirdə “İlin ən fəal mətbuat işçisi” adına layiq görüldüm və diplomla təltif olundum. Builki ən böyük uğurum isə Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsində “Naxçıvanın dünəni ilə bu günü” adlı hazırladığım videomaterialla ikinci yerə layiq görülüb diplom və pul mükafatı ilə təltif edilməyim oldu. Bunun üçün çox sevincli və qürurluyam. Bu biz gənclərə göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Mən bundan sonra da öz fəaliyyətimlə təkcə muxtar respublikamızın deyil, ölkəmizin ictimai-siyasi, mədəni həyatında seçilməyə və öz işimlə qədim diyarımızı layiqincə təbliğ etməyə çalışacağam.

Son illərdə Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının yaradılmasına və inkişafına xüsusi diqqət göstərilir, onlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunurlar. Bu qayğıdan qadınlarımız da pay düşür. Qabaqcıl ailə təsərrüfatçılarından biri də ***Sədərək rayon sakini Mehparə Hüseynova***dır. Onu nəinki kənddə, muxtar respublikada fəal ailə təsərrüfatçısı kimi tanıyırlar. Əkib-becərmək zəhmət tələb edən iş olsa da, bu çətinliklər onu qorxutmayıb, əksinə, torpağa daha möhkəm tellərlə bağlanıb. O, zəhmətdən çəkinməyib, buna görə də uğura gedən yolda irəliləyə bilib. Təsərrüfat qurmağa başladığı gündən dövlətimizin diqqət və qayğısı sa-



yəsində bütün çətinliklərə sinə gərib. Hətta ətrafına 10-a yaxın qadın da toplayıb, onların köməkliyi ilə bir çox çətin işin öhdəsindən gəlib. Mehparə deyir ki, bu il yayda, payızda bağlardan, əkin sahələrindən topladıqları məhsullardan 158 adda 5 min məhsul qablaşdırıblar. 2018-ci ildə “Ailə təsərrüfatı məhsulları” festivalında üçüncü, 2019-cu ildə “Kətə” festivalında ikinci, “Ailə təsərrüfatı məhsulları” festivalında isə birinci yerlərə layiq görülüb. Bu gənc qadının çəkdiyi zəhmətin müqabilində qazandığı uğurlar kənd yerlərində yaşayan bütün qadınlarımıza nümunədir.

Muxtar respublikamızda diqqətdə saxlanılan sahələrdən biri də gənc idmançılar nəslinin yetişdirilməsidir. Hər zaman Azərbaycanın bayrağını beynəlxalq arenalarda dalğalandıran, Naxçıvanın idman ənənələrini layiqincə təmsil edən idmançılardan biri də ***Vüsal Seyidov***dur.

2004-cü il oktyabr ayının 30-da Babək rayonunun Vayxır kəndində dünyaya gələn Vüsalda karateyə maraq və sevgi lap uşaqlıqdan başlayıb.



Bunu görən məşqçilər qısa vaxt kəsiyində onu Naxçıvanın əsas komandasına dəvət ediblər. O, ilk məşqçisi Nəriman Quliyevin rəhbərliyi altında keçirilən yarışlarda uğur qazanmaqla göstərilən etimadın yanlış olmadığını bir daha nümayiş etdirib. İstedadı, təmkini və tatamidəki ustalığı ilə seçilən Vüsal Seyidov İran İslam Respublikasının Astara şəhərində keçirilən karate üzrə IV Beynəlxalq turnirində və Qara dəniz və Xəzəryanı ölkələrin beynəlxalq turnirində gümüş medal qazanıb. Bakı Open – 2019 Beynəlxalq karate turnirində və ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş karate-do üzrə “Naxçıvan Open” beynəlxalq turnirində fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Makedoniyanın Skopya şəhərində karate üzrə keçirilən XI Avropa çempionatında isə qitənin ən güclü idmançısı adını qazanıb və Vətənə qızıl medalla qayıdıb.

Cari ilin son ayında Bakı şəhərində Dünya Şotokan Federasiyasının baş təlimatçısı Hitosi Kasuyanın keçdiyi seminarda Vüsal Seyidov ustalıq nümayiş etdirərək I dan qara kəmərə layiq görülüb.

2019-cu ildə muxtar respublika üzrə “İlin ən gənc idmançısı” nominasiyasında qalib olan Vüsal deyir ki, bu gün Naxçıvanda biz idmançıların uğur qazanması, beynəlxalq turnirlərdə bayrağımızın dalğalanması, məhz göstərilən diqqətin qələbəsidir. Muxtar respublikada ilin ən yaxşı gənc idmançılarından biri seçilməyim Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının da uğurudur. Çünki federasiya hər zaman bizə dəstək olur, bütün yarışlarda iştirakımızı təmin edir. Naxçıvanda gənc idmançılara yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildirir və əmin edirik ki, qarşıdakı yarışlarda, turnirlərdə daha böyük uğurlar qazanıb ölkəmizi layiqincə təmsil edəcəyik.

*Sevinci, kədəri ilə həyatımızda izlər qoymuş növbəti bir il geridə qalır. Bu günlər dünyada yaşayan bütün azərbaycanlılar iki mühüm hadisəni bayram edirlər. Yeni ilin gəlişini və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü. Həmrəylik mənaca böyük bir məfhumdur. Bəli, nə qədər ki bizlər birik, nə qədər ki bir-birimizə arxayıq, həmrəyik, həmişə güclü olacağıq.*

✍ **Ramiyyə ƏKBƏROVA**
✍ **Ceyhun MƏMMƏDOV**
✍ **Güntac ŞAHMƏMMƏDLİ**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 891